

# Türkiyə-Azərbaycan

## əlaqələri dərin tarixi köklərə əsaslanır



### 13 aprel 1999-cu ildə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev "Atatürk Beynəlxalq Sülh Mükafatı" ilə təltif olunmuşdur

***Hər bir xalqın əsrlər boyu yaşatdığı dövlətçilik ənənələrinin formalaşmasında əlverişli siyasi mühit və milli iradə ilə yanaşı, daxilən güclü, vətənpərvər və xalqın milli iradəsini ortaya qoyaraq həqiqi müstəqillik arzusunun reallığa çevrilməsində məsuliyyəti öz çiyinlərinə götürən fenomen şəxsiyyətləri olur. Bu şəxsiyyətlər xalqın azadlıq, müstəqillik və milli dövlətçilik kimi ali məqsədlərinin gerçəkləşməsində müstəsna rol oynayır, bununla da, əbədiyaşarlıq ucalığına qovuşurlar.***

Azərbaycan dövlətinin tarixində əvəzedilməz şəxsiyyət olan Heydər Əliyev xalqının yaddaşında, təfəkküründə güclü dövlət xadimi olmaqla bərabər, həm də dəyişməz əqidəli, öz xalqına, onun adət-ənənələrinə, milli dəyərlərinə qırılmaz tellərlə bağlı olan müdrik rəhbər kimi əbədi yaşayır. Azərbaycançılıq məfkurəsinin və milli ruhun yüksəlişinin, milli özünüdərkin, xalqın tarixi yaddaşının özünə qaytarılmasının, milli, dövlətçilik ənənələrinin güclənməsinin, mənəvi dəyərlərin dirçəldilməsinin, Azərbaycanın haqq səsinin dünyaya çatdırılmasının təməlini Heydər Əliyev hələ 70-ci illərdəki fəaliyyəti dövründə qoymuşdu. Bu illərdə Azərbaycanda sürətli inkişaf dövrü başlamış, bütün sahələrdə dahi rəhbərin səriştə və prinsipiallıqla həyata keçirdiyi sosial-iqtisadi və mədəni siyasət öz bəhrəsini verməyə başlamış, ölkə yeni bir intibah dövrünə qədəm qoymuşdu. Respublikaya rəhbərliyinin bütün dövrlərində Azərbaycanın inkişafında yeni bir tarixi mərhələnin əsasını qoyan Heydər Əliyev hər bir dövr üçün xarakterik olan ictimai-siyasi yönlü maneələri məharətlə aradan qaldıraraq tənəzzülün qarşısını almağa və ölkənin bütün sahələrində dinamik inkişaf üçün möhkəm özül yaratmağa müvəffəq olmuşdu.

Azərbaycan tarixinin ən şanlı səhifələrini yazmış ulu öndər xalqının tükənməz gücünə, zəngin potensialına dərindən inanaraq böyük qətiyyətlə müstəqilliyimizin iqtisadi, siyasi, mənəvi əsaslarını hələ ölkəyə rəhbərliyinin ilk illərində yaratmağa başlamışdı. Belə ki, Heydər Əliyevin respublikamıza rəhbərliyinin birinci mərhələsində Azərbaycanın hərtərəfli inkişaf dövrü başlamış, yüksəliş həyatın heç bir sahəsindən yan keçməmişdir. 1993-cü ildə ölkə rəhbərliyinə ikinci dəfə qayıdışı ilə isə Azərbaycan dövlətinin müstəqilliyini əbədi, sarsılmaz etmiş, müstəqil Azərbaycan dövləti Heydər Əliyevin şah əsəri olaraq qəbul edilmişdir. Bu gün Müstəqil Azərbaycan Heydər Əliyev ideyaları ilə qətiyyətlə irəliləyir, gücünü və qüdrətini durmadan artırır.

Türkiyə ilə Azərbaycan arasında dərin köklərə, minillik tarixə malik dostluq, qardaşlıq münasibətləri olmuş və bu münasibətlər həm də sıx əməkdaşlıq əlaqələrinə çevrilmişdir. Türkiyə Cümhuriyyəti ilə Azərbaycan Respublikası, Türkiyə xalqı ilə Azərbaycan xalqı arasında əbədi və sarsılmaz əlaqələr demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu prosesində dostluğumuzu, qardaşlığımızı daha da gücləndirmişdi. Həmişə Azərbaycanın yanında olan, onun müstəqilliyini ilk tanıyan Türkiyə ölkəmizin bütün sahələrdə, eyni zamanda iqtisadi və sosial inkişaf sahəsində çox yüksək sürətlə irəliləməsinə dəstək vermiş, bir millətin şaxələri olan Türkiyə-Azərbaycan həm siyasi, həm iqtisadi, həm mədəni sahədə birgə, mətin addımlar atmışlar. 1923-cü ildə Türkiyə Respublikasını "Yurdda sülh, cahanda sülh" ideoloji əsasları üzərində quran, "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir. Azərbaycan bizim qardaşımızdır. Heç nəyə baxmayaraq ona yardım etmək borcumuzdur " - deyən Türkiyə Respublikasının qurucusu Mustafa Kamal Atatürkün bu sözləri Azərbaycan haqqında işlətdiyi ən məşhur fikirlərdəndir.

Demokratik Türkiyənin əsasını qoyaraq böyük dövlət yaratmış Mustafa Kamal Atatürkü həmişə örnək qəbul edən Heydər Əliyev unudulmaz Atatürkün adını min illərdən gələn Türkiyə və Azərbaycan dostluğu və qardaşlığı yolunda parlaq işıq adlandırmışdır. Türkiyə Cümhuriyyətinin 10-cu ildönümü münasibətilə çıxışında Mustafa Kamal Atatürk demişdir: "Bu gün Sovet İttifaqı bizim dostumuz, qonşumuz və müttəfiqimizdir. Bu dostluğa ehtiyacımız var. Lakin sabah nə olacağını bu gün heç kim müəyyən edə bilməz. Nəinki Osmanlı kimi, Avstriya-Macarıstan kimi parçalana bilər, kiçilə bilər. Bu gün əlində bərk-bərk tutduğu millətlər qonşularından qaça bilərlər. Dünya yeni bir müvazinətə keçə bilər. O zaman Türkiyə nə edəcəyini bilməlidir. Bizim bu dostluğmuzun idarəçiliyi altında dili bir, dini bir, mahiyyəti bir qardaşlarımız vardır. Onlara sahib çıxmağa hazır olmalıyıq. Susaraq o günü gözləmək lazım deyil, hazır olmaq lazımdır. Millətlər buna necə hazırlaşırlar, mənəvi körpüləri möhkəm saxlayırlarmı? Biz bir körpüyük. İnam bir körpüdür, xaric bir körpüdür. Köklərimizə qayıtmalı və hadisələri bölən tariximizin içində bütövlənməliyik. Onların bizə yaxınlaşmasını gözləyə bilmərik. Bizim onlara yaxınlaşmağımız lazımdır".

Böyük Atatürkün bu kəlamları tarixin bütün dövrlərində Türkiyə-Azərbaycan birliyinin əsas ideyasını təşkil etmiş, həm Türkiyə, həm də Azərbaycan üçün böyük əhəmiyyət daşımış, Türkiyə-Azərbaycan diplomatik əlaqələrinin tarixini zənginləşdirmişdir. Türkiyəyə dost, qardaş olan Azərbaycan xalqı öz milli azadlığı uğrunda mübarizə apararkən milli istiqlaliyyətinə nail olmağa, milli dövlətçiliyini yaratmağa çalışarkən daim Türkiyə xalqının dəstəyinə, dayağına arxalanmış, Mustafa Kamal Atatürkün qoyduğu yolla gedən Türkiyə Cümhuriyyətinin təcrübəsindən bəhrələnmişdir. Hələ 1918-1920-ci illərdə erməni millətçi-daşnaklarının Azərbaycanda törətdikləri qırğınlar, xalqın başına gətirdikləri müsibətlər zamanı məhz Mustafa Kamal Atatürkün iradəsi sayəsində Türkiyənin Qafqaz Ordusu Azərbaycana gəlmiş, Naxçıvanda, Qarabağda, Gəncədə, Bakıda azərbaycanlıları erməni qırğınından xilas etmişdi.

Mustafa Kamal Atatürkü böyük ehtiramla yad edən, onun gördüyü işləri, başladığı yolu davam etdirən, onun irsinə daim sədaqətli olan ulu öndər Heydər Əliyev dövlət quruculuğu siyasətində, demokratiyanın prinsipləri əsasında inkişafında, insan hüquqlarının qorunması sahəsində hər zaman dahi öndərin qoyduğu yolla irəliləmişdir. Ümummilli lider Heydər Əliyev nəinki Azərbaycanda, bütün dünyada sülhün tərəfdarı olmuş, bütün fəaliyyəti boyu Atatürkün "Cahanda sülh, yurdda sülh, bölgədə sülh" prinsipinə əsaslanaraq siyasət yürütmüş, ölkəmizi gündən-günə dünyanın ən qüdrətli, ən inkişaf etmiş, ən dünyəvi dövlətlərindən birinə çevirmişdir.

Türkiyənin siyasi həyatında böyük uğurlara imza atan, Atatürk ideyalarının davamçısı, Azərbaycan xalqının yaxın dostu Süleyman Dəmirəl ulu öndər Heydər Əliyevi 1999-cu ildə dünyanın ən nüfuzlu mükafatlarından olan Atatürk Beynəlxalq Sülh Mükafatına layiq görmüşdür. 1988-ci ildən başlayaraq Ermənistanın ərazi bütövlüyümüzü pozması, xalqımıza qarşı yürütdüyü işğalçılıq siyasəti nəticəsində ölkəmizin münaqişə, savaş içində olduğu bir zamanda ulu öndər Heydər Əliyevin barış, sülh naminə gördüyü işlər Türkiyə Cümhuriyyəti tərəfindən yüksək qiymətləndirilmiş, ümummilli liderə Türkiyə Cümhuriyyətinin yaradıcısı, XX əsrin ən böyük şəxsiyyətlərindən olan Mustafa Kamal Atatürkün adını daşıyan Beynəlxalq Sülh Mükafatı təqdim olunmuşdur. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev 1999-cu ildə Ankarada keçirilən təqdimetmə mərasimində demişdir: "Mənə böyük Atatürkün adını daşıyan Beynəlxalq Sülh Mükafatı təqdim olunubdur. Bu mənim üçün, bütün Azərbaycan xalqı üçün, müstəqil Azərbaycan dövləti üçün böyük şərəfdir. Mən bununla fəxr edirəm. Atatürkün şəxsiyyəti, onun yaratdığı Türkiyə Cümhuriyyəti mənim üçün örnəkdir. Mən buna daim sadiq olacağam. Əminəm ki, Atatürk Türkiyəsi əbədiyyətə qədər uğurla yaşayacaqdır".

XX əsrin ən böyük tarixi simalarından biri - Türkiyə Cümhuriyyətinin banisi, böyük öndər Mustafa Kamal Atatürkün adını daşıyan Sülh Mükafatına layiq görülməyindən hədsiz şərəf və qürur, iftixar hissi duyan ulu öndər Heydər Əliyev Türkiyə Prezidenti Süleyman Dəmirələ öz ürək sözlərini bildirmiş, bu mükafatı ümumilikdə Azərbaycan xalqına göstərilən qayğı, diqqət və ehtiram olaraq dəyərləndirmiş, böyük öndər Mustafa Kamal Atatürkün şəxsiyyətinə, onun yüksək amallarına və bəşəriyyətə bəxş etdiyi ən dəyərli miras olan Türkiyə Cümhuriyyətinə dərin məhəbbət, hörmət və ehtiramını ifadə etmişdir.

Ulu öndər Heydər Əliyev həmçinin, Türkiyə Cümhuriyyətinin baş naziri, Atatürk Beynəlxalq Sülh Mükafatı Komitəsinin sədri Bülənd Ecevitə də Türkiyə-Azərbaycan dostluğunun və qardaşlığının parlaq ifadəsi olan bu ali mükafata layiq görülməsi ilə bağlı dərin minnətdarlığını bildirmişdir: "Atatürk Beynəlxalq Sülh Mükafatının mənə verilməsindən hədsiz məmnunam. Bəşəriyyətin ən müdrik siyasətçilərindən olan dahi Mustafa Kamal Atatürkün xatirəsini əbədiləşdirən bu mükafat bütün Azərbaycan xalqı üçün xüsusilə qiymətlidir... Atatürk mükafatı ilə mənim fəaliyyətimə verilən yüksək qiymətə, mənə, Azərbaycan xalqına göstərilən qayğı və diqqətə görə Sizə və Türkiyənin görkəmli dövlət, elm, ictimai və siyasi xadimlərinin daxil olduğu Atatürk Beynəlxalq Sülh Mükafatı Komitəsinin üzvlərinə dərin minnətdarlığımı bildirir, qardaş Türkiyə xalqına, onun hər bir vətəndaşına sülh, səadət və tərəqqi arzulayıram".

Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın dediyi kimi, bu gün güclənən bir Azərbaycan, güclənən bir Türkiyə var. Bir millət, iki dövlət olan Azərbaycan-Türkiyə çiyin-çiyinə verərək mətin addımlarla uğurlu gələcəyə doğru inamla addımlayır. Türkiyə-Azərbaycan adı bütün dünyada qoşa çəkilir. Ümummilli lider Heydər Əliyevin xarici siyasət kursunu uğurla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyevin qardaş Türkiyə dövləti ilə münasibətlərini yüksələn xətt üzrə inkişaf etdirməsi bu əlaqələri müttəfiqlik səviyyəsinə yüksəldib. Yüksək səviyyəli əməkdaşlıq əsasında qurulan Azərbaycan-Türkiyə birliyinin möhkəmlənməsi isə ölkələrimizi daha da gücləndirir, qüdrətləndirir.

**Mehparə ƏLİYEVA,
"Respublika".**